*http://doi.org/10.58225/sw.2023.2-10-14*

# TARİXİ ŞƏHƏR İRSİ MÜHAFİZƏSİNİN ÇAĞIRIŞLARI VƏ ŞƏHƏRSALMA İNKİŞAFINA İNTEQRASİYASI – BAKI ŞƏHƏRİNİN NÜMUNƏSİNDƏ

**Əkbərli Aytac Sədrəddin qızı** – doktorant, Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrası, AzMİU, aytajakberli@gmail.com

**Annotasiya.** Məqalədə Bakının tarixi şəhər irsi konteksti çərçivəsində mövcud istifadə və inkişaf çağırışlarının ümumi, lakin müxtəlif aspektlərə dayanan təhlili aparılmışdır. Tədqiqat prosesində Bakı şəhərinin tarixi, memarlıq, şəhərsalma strukturu, landşaft, funksionallıq və ya ictimai yaddaş nöqteyi nəzərdən əhəmiyyətli, lakin bilavasitə tarixi şəhər mərkəzi hesab olunmayan əraziləri əsas götürülmüşdür. Sözügedən ərazilərin bir qismi müasir istismar tələblərinə cavab verməsə də və ya müasir şəhər inkişafında məhdudiyyət kimi görülsə də, hər birinin ayrı-ayrılıqda özünəməxsus kimliyinin olduğunu nəzərə aldıqda, bu kimliyi həmin ərazilərin potensial inkişafında xüsusi yanaşmaları təmin etmək üçün bir alətə çevirmək mümkünlüyü qeyd olunmuşdur. Təhlillərin nəticəsi olaraq, tarixi irs ərazilərinin şəhərin inkişafına inteqrasiyası yolları üzrə təkliflər irəli sürülmüşdür.
Nəticə olaraq isə, tarixi kontekst və yeni inkişafın qarşılıqlı əlaqədə ola biləcəyini və onların rolununun qarşılıqlı şəkildə möhkəmləndirmək üçün xüsusi, obyektiv və çoxşaxəli yanaşmanın tətbiqi zəruriliyi qeyd edilir.
**Açar sözlər:** memarlıq, şəhərsalma, şəhər inkişafı, çağırışlar, şəhər irsi, memarlıq irsi, abidələr, bərpa, yenidənqurma, konservasiya

# HISTORICAL URBAN HERITAGE PRESERVATION CHALLENGES AND ITS INTEGRATION INTO URBAN DEVELOPMENT - IN THE EXAMPLE OF BAKU CITY

**Akbarli Aytaj Sadraddin** – PhD student, department of Architectural Constructions and Restoration of Monuments, AzUAC, aytajakberli@gmail.com

**Abstract.** In the article, a general but different aspect analysis of the current use and development challenges within the context of Baku's historical urban heritage was made. In the research process, the areas of Baku city that are important from the point of view of history, architecture, urban planning structure, landscape, functionality or public memory, but which are not directly considered the historical city center, were taken as a basis. Although some of the mentioned areas do not meet the requirements of modern utilization or are seen as a limitation in future urban development, considering that each of them has its own unique identity, the possibility of turning this identity into a tool to ensure special approaches in the potential development of those areas was noted. As a result of the analysis, proposals were put forward on ways to integrate historical heritage areas into the development of the city. In conclusion, it is noted that the historical context and the new development can interact and the need to apply a special, objective and multifaceted approach to mutually strengthen their role.
**Keywords:** architecture, urban planning, urban development, challenges, urban heritage, architectural heritage, monuments, restoration, reconstruction, conservation

**Giriş:** Müasir dövrdə şəhərlər urbanizasiya prosesi və dinamik inkişafla paralel iqlim dəyişikliyi, ətraf mühitin mühafizəsi, nəqliyyat və mühəndis-kommunikasiya infrastrukturu problemləri, bazar iqtisadiyyatının tələbləri, kütləvi turizm kimi özünəməxsus çağırışların təzyiqi ilə qarşılaşırlar. Sözügedən çağırışlardan biri də, tarixən təşəkkül tapmış şəhər mərkəzlərinin və şəhər irsinin idarə edilməsidir ki, bu da öz növbəsində daha düşünülmüş və strateji yanaşmanın tətbiq edilməsini tələb edir. Şəhər mərkəzi dedikdə, bir qayda olaraq onların inkişafının başlanğıc nöqtəsi hesab olunan, həm memarlıq, həm də ictimai cəhətdən əhəmiyyət kəsb edən tarixi və coğrafi mərkəzi

əsas götürülür. Lakin, müxtəlif dövrlər ərzində şəhərlərin inkişafı və üfüqi genişlənməsi nəticəsində öz funksiyası və əhəmiyyətinə görə fərqlənən mərkəzlərin sayı arta bilər.

Bununla belə, «tarixi şəhər mərkəzi» anlayışından fərqli olaraq, «şəhər irsi» daha geniş şəhər kontekstini və onun coğrafi, sosial və mədəni məkanını əhatə edir. Bu kontekst çərçivəsində inzibati, ictimai və turistik mərkəz ilə yanaşı bilavasitə mərkəzdə yerləşməyən, lakin həm tarixi, həm şəhərsalma inkişafı nöqteyi-nəzərindən, habelə sakinlərin, ələlxüsus da yerli icmaların sıx məskunlaşdığı, mədəni və sosial aspektdən bağlı olduqları əraziləri nəzərdə tutmaq mümkündür. Şəhər irsinin qorunub saxlanması və idarə edilməsi şəhərin xarakterini və kimliyini qorumaq üçün mühüm əhəmiyyət kəsb etsə də, sürətlə böyüyən şəhərlərdə inkişaf imkanlarını məhdudlaşdıra bilər. Tarixi mərkəzlərə malik şəhərlərdə irsin qorunması və inkişaf arasında incə balans tələb edən unikal problem və məqsədləri müəyyən etmək lazımdır. Bu halda ortaya belə bir sual çıxır: İnkişaf yoxsa konservasiya?

İstənilən tarixi şəhər mühitini başa düşmək və idarə etmək üçün açar məqam şəhərin statik bir abidə və ya binalar qrupu olmadığını, onu formalaşdıran və formalaşdırmağa davam edən iqtisadi, sosial və mədəni sferalarda dinamik qüvvələrə tabe olduğunu qəbul etməkdir. Tarixi kontekst və yeni inkişafın qarşılıqlı əlaqədə ola biləcəyini və onların rolununun qarşılıqlı şəkildə möhkəmləndirmək üçün xüsusi, obyektiv və çoxşaxəli yanaşmanın tətbiqi zəruridir [1]. Aşağıda qeyd olunan çağırışların həlli sözügedən əlaqənin yaradılması və dayanıqlı şəhər inkişaf baxışı üçün zəminin yaradılması baxımından əhəmiyyət kəsb edir (şək.1):

**Tarixi irsin köhnəlməsi və itirilməsi riski** şəhər inkişafı üçün ən ciddi bir çağırışlardan biridir. Bu risk, bir şəhərin köklü tarixi, mədəni və memarlıq xüsusiyyətlərinin zamanla düzgün olmayan istismar və baxımsızlıqdan, habelə antropogen müdaxilələrin nəticəsində itirilməsi və gözlənilməz bir şəkildə dəyişdirilməsi anlamına gəlir. Eyni zamanda, irsin mühafizəsi sahəsində qanunvericiliyin və idarəetmə mexanizmlərinin qeyri-qənaətbəxş olması tarixi şəhər irsinin kommersiya maraqlarına uduzmasını sürətləndirən faktorlardan biridir. Tarixi və mədəni irsi qorumaq üçün əsaslı tədbirlər götürülmədikdə, nizamsız müasir inkişaf şəhərlərin ruhunu, xüsusiyyətlərini və cazibəsini mənfi istiqamətdə dəyişdirə bilər.

**Şəhərətrafı və mərkəzi ərazilər arasında inkişaf fərqlərini** aradan qaldırmaq üçün, şəhər planlaşdırılması və iqtisadiyyatının düzgün təşkil edilməsi vacibdir. Tarixi memarlıq abidələrinin, şəhər simvollarının sıx yerləşdiyi, abadlaşdırılmış və cəlbedici şəhər mərkəzi ilə paralel olaraq, az inkişaf etmiş və estetik cəhətdən zəif ərazilər bir çox hallarda ictimai xidmətlərdən belə məhrum qalmaq üzrədir və düzgün infrastruktur ilə təmin edilməmişdir.

İnvestisiyaların düzgün şəkildə şəhərətrafı ərazilərinə yönləndirilməsi, infrastrukturun inkişafı, ictimai xidmətlərin səviyyəsinin yüksəldilməsi, mədəniyyət və əyləncə cəhətdən cazibəli məkanların yaradılması bu fərqləri azaltmağa kömək edəcəkdir. Şəhərin mərkəzi ilə onu əhatə edən ərzilər arasında daha balanslı bir inkişafı təmin eləmək və yaşayış keyfiyyətini yüksəltmək üçün bu addımların atılması önəmlidir.

**Gentrifikasiya istismar** dövrünü başa vurmuş və ya estetik cəhətdən qənaətbəxş hesab olunmayan müəyyən ərazilərində yaşayış məhəllələrinin maddi cəhətdən üstünlük təşkil bir qrup tərəfindən alınaraq əvəzində yeni yaşayış və ya ictimai binalardan ibarət komplekslərin tikilməsi nəticəsində kirayələrin artması və yerli sakinlərin məcburi relokasiyası ilə müşayiət olunan bir fenomendir.

Sosial yaddaşın itirilməsi ilə birlikdə, gentrifikasiya məsələsi yerli sakinlərin cəmiyyətə və yerə aid olma hissi, şəhərin tarixi və memarlıq irsin itirilməsi baxımından da təhlükə təşkil edir. Gentrifikasiya prosesi zamanla şəhər mənzərəsini dəyişdirir, sosial strukturları zəiflədir və yerli sakinləri məcburi köçürməklə orijinal mədəniyyət mərkəzləri və yerli icmaları itirir. Bu da şəhərin ruhunu, sosial bağlarını və toplumun birliyini, adət-ənənələrin davam etdirilməsini mənfi şəkildə dəyişdirə bilər.

Gentrifikasiya bir çağırış olaraq, şəhərsalma mütəxəssisləri, dövlət sektoru və ictimaiyyət üçün bir xəbərdarlıq kimi dəyərləndirilməlidir. Bu, ictimai nəqliyyatın, mədəni məkanların və ictimai infrastrukturun qorunması və gücləndirilməsi, yerli işçilərin və sənətkarların dəstəklənməsi, mədəni

mərkəzlərin və təşkilatların saxlanılması və yeni mədəniyyət inkişafı və kiçik lokal biznes təşəbbüslərinin dəstəklənməsi ilə həyata keçirilə bilər.

**Nizamsız və dinamik şəhər inkişafı** xüsusən sürətlə inkişaf edən şəhərlərin rastlaşdığı problemlərdən biridir. Yüksək sıxlıqlı tikintilərin şəhərdə qeyri-mütəşəkkil paylanılması, şəhərsalma norma və qaydalarına, habelə ərazi planlaşdırılması parametrlərinə riayət olunmaması nəticəsində tarixi irs zonalarında təsadüfi və pərakəndə şəkildə yerləşdirilmiş, üslub və həcminə görə yerləşdiyi ərazi ilə kəskin uyğunsuzluq təşkil edən binaların artmasına gətirib çıxarır və şəhərlərdə, xüsusən də şəhər irsi ərazilərində vizual çirkliyiyin biraz daha artması ilə nəticələnir. Nəzərə almaq lazımdır ki, bu cür yanlış hallar şəhərin ümumi mənzərəsində geri dönüşü olmayan nəticələrə gətirib çıxarır.

Bu halda, şəhərsalma mütəxəssisləri, həmçinin dövlət və özəl sektor üçün daha sərt tənzimlənmə mexanizminin yaradılması zərurəti ortaya çıxır. Nizamsız inkişaf ictimai infrastrukturun və xidmətlərin zəif olduğu bölgələrdə nəqliyyat sıxıntıları, təhlükəli məkanların artması və səmərəli mühitdən məhrumluq kimi problemlərə səbəb olur. Bu, şəhərin yaşayış keyfiyyətini və inkişaf potensialını kəskin şəkildə məhdudlaşdırır.

**Köhnəlmiş mühəndis təchizatı infrastrukturu** şəhərlərin yaşayış keyfiyyəti baxımından təhlükə yaratmaqdadır. Köhnəlmiş infrastruktur ayrı-ayrı tarixi binaların istismar keyfiyyətini aşağı salmaq, hətta onlara ziyan vurmaqla bərabər, tarixi ərazilərdə onların yenilənməsi və ya yenidən çəkilməsi daha mürəkkəb bir icraat tələb edir. Bundan əlavə, tarixi binalarının konstruksiyası və daxili planlaşdırılması əksər hallarda müasir mühəndis kommunikasiya şəbəkələrinin (enerji təchizatı, havalandırma, su-kanalizasiya şəbəkəsi) quraşdırılmasında məhdudiyyətlər yaradır.

**Artan nəqliyyat tələbatı** və avtomobilləşmə səviyyəsi daimi tıxaclara səbəb olaraq, şəhərin müxtəlif hissələrinin bir-birinə əlçatanlığını və tarixi-coğrafi mərkəzdən fərqli şəhər irsi zonalarının cəlbedicilik imkanlarını məhdudlaşdırır. Bu məqamdan çıxış yolu, yüksək sərnişindaşıma qabiliyyətinə malik ictimai nəqliyyat sistemini gücləndirmək üçün ciddi tədbirlərin görülməsidir. Mövcud metro nəqliyyat sistemi yüksək sərnişindaşıma qabiliyyəti ilə ictimai nəqliyyatın əsas rolunu davam etdirəcək. Lakin, metro tikinti xərclərinin yüksək olması və tikinti mürəkkəbliyindən alternativ ictimai nəqliyyat layihələri, məsələn, tramvay sistemi şəhər daxilində sürətli, təhlükəsiz, təmiz və rahat bir nəqliyyat təcrübəsini təmin edə bilər.

**Müzakirə:** Yuxarıda qeyd olunan çağırışların kompleks şəkildə qiymətləndirilməsini apardırqda "Tarixi şəhər irsinin idarə olunması üçün hansı yeni idarəçilik və maliyyə alətlərinə ehtiyac var?", "Şəhərlərin kimliyini necə qoruyub saxlaya və gücləndirə bilərik?", "Şəhərin mühafizəsi yerli icmaların ehtiyaclarına necə xidmət edə bilər?", "Şəhər irsini qorumaqla paralel onun inkişafa inteqrasiyasına necə nail olmaq olar?" kimi suallar ortaya çıxır.

Şəhərsalma inkişafı ilə yanaşı irsin mühafizəsi məsələsinə Bakı şəhərinin nümunəsində baxdıqda, burada sözügedən kontekst çərçivəsində müxtəlif potensial inkişaf istiqamətlərini qeyd etmək olar. Müxtəlif tarixi dövrlərin və memarlıq üslublarının vəhdəti Bakının simasını formalaşdıran, onun kimliyini müəyyənləşdirən bir amilə çevrilmişdir. Bu müxtəlifliyə kompleks şəkildə yanaşmaqla, onu fürsətə çevirməklə paralel, strateji mühafizə tədbirlərinin görülməsini də təmin etmək zəruridir.

Çox qısa müddətdə müxtəlif inkişaf yollarından keçmiş və günümüzdə də dayanmadan inkişaf edən Bakı şəhəri irsin mühafizəsi və idarə olunması kimi məsələlərin dəyərləndirilməsi nöqteyi nəzərdən unikal bir nümunədir. Burada biz qədim İçərişəhərdən tutmuş, ilkin neft kapitalizmi dövrü irsinə, konstruktivizm cərəyanından şəhərin simvollarına çevrilmiş müstəqillik dövrünün müasir memarlıq nümunələrinə kimi müxtəlif istiqamət və üslubların sıx şəkildə "qonşuluq" etdiklərinə şahid ola bilərik. Bunlara nümunə olaraq, XIX əsrin sonu XX əsrin əvvəllərində əsası qoyulmuş "bayır şəhər" - tarixi forştadt ilə paralel formalaşaraq sıx məskunlaşmış yaşayış məhəllələrini (məsələn, "Sovetskaya" və "Kubinka" kimi tanınan ərazilər), Bakının şəhərsalma inkişafının əsas katalizatoru olan neft sənayesinin tarixi ilə bilavasitə əlaqəli olan əraziləri (Səbail, Xətai, Sabunçu rayonlarında istifadəsiz fabrik binaları və s.), XX əsrin ikinci yarısında aktiv şəkildə fəaliyyət göstərərək ölkənin iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb etmiş keçmiş sənaye zonalarını (məsələn, "Ulduz" və "Bakmil" metrostansiyalarını əhatə edən ərazilər), 1930-60-cı illər arasında

formalaşmış nizamlı yaşayış kvartallarını, habelə funksional və "yaşıl" mikrorayonları qeyd etmək olar.

Sözügedən ərazilər istismar keyfiyyəti baxımından ümumilikdə qənaətbəxş hesab olunmasa da, orada yerləşən bir sıra tarixi memarlıq abidələri, habelə abidə statusuna malik olmayan, lakin memarlıq və şəhərsalma strukturunda yeri nöqteyi nəzərdən seçilən binalar və həmçinin yerli sakinlərin yaddaşında tutduğu xüsusi yer (aidiyyat hissi, qonşuluq əlaqələri, adət-ənənələr və s.) bu əraziləri şəhərin ayrılmaz bir hissinə çevirmişdir. Yuxarıda qeyd olunan ərazilərin hər birinin ayrı-ayrılıqda özünəməxsus kimliyə sahib olduğunu nəzərə alaraq, onları şəhər irsi zonası kimi qəbul edərək, bu kimliyi onların potensial inkişafında xüsusi yanaşmaları təmin etmək üçün bir alətə çevirmək mümkündür. Nəzərə almaq lazımdır ki, zamanla köhnəlmiş və istismar dövrünü başa vurmuş tikililər, əlverişsiz infrastruktur, məhdud müasir istifadə imkanları, kommersiya maraqlarına uduzan orijinallıq, həmçinin, tarixi ərazilərdə istənilən müdaxilə və yeni yanaşmaya ictimai müqavimət, yerli kontinqent ilə razılığın əldə edilməsinin qəlizliyi, habelə bərpa və yenidənqurmanın yeni tikintilərə nisbətdə uzunmüddətli və həssaslıq tələb edən, mürəkkəb icraatı şəhər irsinin idarəçiliyində başlıca çətinliklərdən biridir.

Bütün bunlara baxmayaraq, şəhər irsi ərazilərinin tarixi kimliyi, memarlıq-şəhərsalma, habelə şəhər sakinlərinin sosial yaddaşı baxımından əhəmiyyəti, əmlak bazarında yerləşdiyi ərazilərə müvafiq dəyəri şəhər inkişafının maraqlı tərəfləri üçün bir sıra fürsət və imkanları təqdim edir. Misal olaraq, qeyd olunan amilləri prioritet götürərək edilən uzunmüddətli investisiyalar nəticəsində bu ərazilərin həm turizm potensialı, həm də əmlak dəyəri qat-qat yüksələcəkdir. Zəruri hissələrdə ərazinin bədii-memarlıq və həcmi-fəza xüsusiyyətlərinə, habelə ətrafda yerləşən bina və qurğuların miqyasına ahəngdar şəkildə uyğunlaşdırılacaq yeni tikililər əlavə etməklə də, inkişaf və konservasiya arasındakı balansa nail olmaq və əraziyə yeni həyat vermək olar.

Yuxarıda qeyd olunanlara misal olaraq, Bakı şəhərində şəhər irsinin qorunub saxlanılmasının və müasir istifadəyə adaptasiyasının bir sıra gözəl nümunələri mövcuddur. Məsələn, Səbail rayonu ərazisində bir zamanlar neft mədənlərinin enerji təminatı üçün nəzərdə tutulmuş elektrik stansiyasının binasının bərpa-rekonstruksiya olunaraq Daş Salnamə muzeyinin, ötən əsrin əvvəllərində Siemenslər tərəfindən tikilmiş enerji stansiyasının binasının əyləncəli tədbirlərin keçirildiyi "Elektra Events Hall", Hərbi Dəniz Qüvvələrininə aid olmuş binanın "YARAT" Müasir İncəsənət Məkanı kimi istifadəyə verilməsini qeyd etmək olar (şək.1, 2, 3). Bununla da, keçmiş sənaye zonasının müasir Bakı Bulvarının bir hissəsinə çevrilmiş mədəni rekreasiya zonasına transformasiyasını müşahidə edə bilərik. Bundan əlavə, tarixi toponimin bərpa olunaraq və təbii landşaftın qorunması şərtilə şəhər sakinlərinin istifadəsinə verilmiş Çəmbərəkənd parkı, Rus memarı A.S.Kandinovun layihəsinə əsasən 1896-cı ildə inşa olumuş yaşayış binasında (daha sonra Respublika Travmatologiya xəstəxanası) əsaslı yenidənqurma işlərindən sonra açılmış Bakı Kitab Mərkəzi, konstruktivizm cərəyanının Bakıdakı ən gözəl nümunələrindən olan "Dinamo" idman sarayının müasir tələblərə cavab verən mehmanxana olaraq yenidən qurulması, habelə Abşeron qəsələbərində yerinə yetirilməkdə olan regenerasiya işləri şəhər irsinin qorunub saxlanılması, müasir istifadəsi və şəhər inkişafına inteqrasiya kontekstində nümunəvi işlərdəndir.



**Şəkil 1**. Daş Salnamə muzeyi [2]



**Şəkil 2.** "Elektra" hall [2]



**Şəkil 3.** "YARAT" Müasir İncəsənət Məkanı

Şəhər və tarixi irs əraziləri arasında sosial, iqtisadi və fiziki inteqrasiyanın təşviqi yeni iştirakçıların və funksiyaların cəlb edilməsini və bu inteqrasiya nəticəsində yaranan fəaliyyətlərin səmərəli şəkildə tənzimlənməsini tələb edir. Tarixi mərkəzləri olan şəhərlərin inkişafında təkcə tarixi mülklərə investisiya etmək imkanı olanlara deyil, şəhərin bütün «istifadəçilərinə», xüsusilə də yerli icmalara fayda verməsini təmin etmək üçün sosial və iqtisadi bərabərliyə üstünlük verməlidir. Bu səbəbdən ictimai iştirakçılığa, yəni yerli sakinlərin, icmaların bu və ya digər ərazilərdə yerinə yetirilməsi nəzərdə tutulan layihələr barədə əvvəlcədən məlumatlandırılması, rəy və təkliflərini vermələrinə imkan yaradılmalıdır ki, bununla da sakinlərin həyat və yaşayışlarına, həmin yerə olan əlaqələrinə hörmətlə yanaşmaqla yeni təkliflərin tətbiqinə nail olmaq mümkündür. Bunun üçün də, ictimai iştirakçılığı şəhərin tarixi simasını gücləndirmək və yuxarıda qeyd olunan fürsətlərin yerinə yetirilməsi üçün üz tuta biləcəyimiz bir alət kimi baxılmalıdır. [2]

**Nəticə.** Şəhərlər dinamik orqanizmlərdir. Dünyada elə bir tarixi şəhər yoxdur ki, öz ilkin, "orijinal" görünüşünü qoruyub saxlasın. Düzgün yanaşdıqda, şəhər irsi turizm, kommersiya istifadəsi və daha yüksək torpaq və əmlak dəyərləri vasitəsilə sosial-iqtisadi inkişaf üçün katalizator rolunu oynayacaq və bununla da qulluq, bərpa və reabilitasiya xərclərini ödəmək üçün gəlirləri təmin edəcəkdir. [1]

Yekun olaraq, tarixi şəhər irsinin düzgün idarəçiliyini təmin etmək məqsədilə şəhərlərin təbii, mədəni və insan resurslarının tam qiymətləndirilməsini həyata keçirmək, mədəni irsin qorunması və idarə edilməsi sahəsində normativ-hüquqi bazanın təkmilləşdirmək, şəhərsalma mütəxəssisləri, dövlət-özəl sektorları və digər maraqlı tərəflərin əməkdaşlığı ilə davamlı inkişaf təcrübələrini təşviq etmək, investorlar üçün şəhər irsi zonalarında xüsusi imtiyazların tətbiq etmək, şəhər ətrafı ərazilərin inkişafını təşviq edərək balansı bərpa etmək və yerli kiçik bizneslərin inkişafına dəstək olmaqla əsrlər boyu davam edəcək yaşana bilən, tarixi kimliyini qorumuş və canlı şəhər mirası yaratmağa nail olmaq mümkündür.

**Ədəbiyyat**

1. Balancing Growth and Conservation: The Case of Cartagena de Indias - University of Pennsylvania Stuart Weitzman School of Design, 2020
2. New life for historic cities - the historic urban landscape approach explained. United Nations Educational Scientific and Cultural Organization (UNESCO), CLT-2013/WS/11, 2013

*Məqaləyə istinad:Əkbərli A.S. Tarixi şəhər irsi mühafizəsinin çağırışları və şəhərsalma inkişafına inteqrasiyası– Bakı şəhərinin nümunəsində. Elmi Əsərlər/Scientific works, AzMİU, s. 10-14, N2, 2023*
*For citation: Akbarli A.S. Historical urban heritage preservation challenges and its integration into urban development- in the example of Baku city. Elmi Əsərlər/Scientific works, AzUAC, p. 10-14, N2, 2023*